# Turpun nağılına yeni baxış

## Möcüzəli turpun çıxarılması prosesində yaxından iştirak etdik

**Xəyalə RƏİS**



**Fevralın 24-də yolumuzu Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrından saldıq. Teatrın böyük səhnəsində ruslara məxsus "Turpun nağılı"nın motivləri əsasında səhnələşdirilmiş "Möcüzəli turpun nağılı" tamaşasının məşqləri gedirdi. Möcüzəli turpu çıxaranlar sırasında isə teatrın istedadlı komanda heyəti iştirak edirdi.**

Onlardan xalq artisti Yasin Qarayev, əməkdar artistlər Qəmər Məmmədova, Vahid Əliyev, aktyorlar Xalidə Əlimməmmədova, Zümrüd Quliyeva, Asya Atakişiyeva, Sevinc Mehrəliyeva, Zülfiyyə Alhüseynova, Elnur Hüseynov, Mirzəağa Mirzəyev, Anar Səfiyev, Elnur Əliyevin adını çəkə bilərik.

Zala daxil olarkən qaranlıq geniş zalda aktyor və aktrisalar qollarını çırmalayıb işə başlamışdılar. Rejissor kürsüsündə isə teatr tamaşalarında az rastlaşdığımız rejissor və ssenarist Elşən Zeynallı əyləşmişdi. Aktyorların rəqslərini tanınmış aktyor Vüsal Mehrəliyev tərtib edirdi. Vüsal səhnədə aktyorlara rəqsin quruluşunu, hansı istiqamətə doğru hərəkət etmələrini göstərir, zaldan onların hərəkətlərini izləyərək rəqsi nizama salmağa çalışırdı. O, aktyorları yenə, yenə və yenə məşq etməyə səsləyirdi. Əslində tamaşa zamanı hər şey al-əlvan, bəzəkli tort kimi görünsə də, həqiqətən də məşq zamanı aktyorlar çox əziyyət çəkirlər. Səhnədə ən azı fəhlə kimi işləyir, hadisəni göstərmək üçün var gücləri ilə çalışırlar. Kənardan çox sadə görünən bir obrazı tamaşaçıya çatdırmaq üçün aktyor və rejissor sərasər işləyir, ortaya maraqlı bir tamaşa qoymağa çalışırlar.

Rejissor Elşən Zeynallı da zalda tamaşaçı oturacaqlarında əyləşərək öz göstərişlərini verirdi. O, zalın boş qalması və aktyorların hansı mizan üzərində hərəkət etmələrinə nəzarət edirdi. Gəlişimizdən duyuq düşən rejissor işinə bir neçə dəqiqə fasilə verib, söhbət etməyə də imkan tapdı. E.Zeynallı bizimlə söhbətində bildirdi ki, Azərbaycanda uşaqların zövqlərini nəzərə alaraq müxtəlif tamaşalar hazırlanır. Gənc Tamaşaçılar Teatrında nümayiş olunan tamaşalar isə hər zaman öz üslub və quruluşu baxımından fərqlənib: "Uşaq tamaşalarını hazırlamaq rejissorlardan böyük risk tələb edir. Bildiyiniz kimi, azyaşlı uşaqlar özləri bilet alıb teatra gələ bilməzlər. Mütləqdir ki, onları teatra valideynləri gətirsin. Uşaqların zövqünü oxşayan tamaşa hərdən valideynlərin xoşuna gəlmir. Çünki bu, uşaq tamaşasıdır. Təəssüflər olsun ki, bu da valideynlər üçün bir o qədər əhəmiyyət kəsb etmir. Ona görə də bilet alan valideyn ikinci dəfə o teatra üz tutmur. Burada qəribə bir təzad var. Bu problemin baş verməməyi üçün Gənc Tamaşaçılar Teatrı istənilən yaş dövrünü nəzərə alır. Bundan başqa, bəzən uşaqlar tamaşa zamanı səs-küyə qapılır, diqqətləri yayınır. Belə olan halda, onlar tamaşadan heç nə anlaya bilmirlər. Uşaq tamaşalarında səs, işıq, dekor - hamısı elə tərtib olunmalıdır ki, uşaqların diqqəti başqa səmtə yayınmasın. Rejissorlar da bu baxımdan uşaqların marağını nəzərə alıb tamaşa hazırlayır".



Rejissor dedi ki, sözügedən tamaşanı hazırlamamışdan öncə bir qədər tərəddüd edib. Çünki bu onun yaradıcılığında bir ilkdir: "İlk dəfədir ki, mən nağıl tamaşası hazırlayıram. Nağıl-tamaşa hazırlamaq çox çətindir. İndi biz çalışırıq ki, hazırladığımız tamaşa həm uşaqların, həm də valideynlərin maraq dairəsində olsun. Bu iş isə həm görüntü, həm də ideya baxımından yaradıcı heyətdən çox peşəkarlıq tələb edir. Tamaşamızda məsələ təkcə turpun dartılıb çıxarılmasından ibarət deyil. Bilirsiniz ki, turpun dartılması babadan başlayıb siçanda qurtarır. Burada təlim-tərbiyə, nizam-intizam əsas götürülür".

E.Zeynallı ona təklif olunan bu işin öhdəsindən layiqincə gəlməyə çalışdığını sübut etmək istəyir: "Teatrın rəhbəri, əməkdar incəsənət xadimi Mübariz Həmidov və baş rejissoru, əməkdar incəsənət xadimi Bəhram Osmanov ilə bir yerdə yaradıcılıq görüşümüz oldu. Çalışırdım ki, Gənc Tamaşaçılar Teatrında maraqlı bir tamaşa hazırlayım. Bütün nağılların arasında mənim diqqətimi çəkən bu nağıl oldu. Çünki sözügedən nağıl müasir dövrümüzlə səsləşir. Bu gün cəmiyyətimizdə baş verən hadisələr bu tamaşada göstəriləcək. Azərbaycan teatr mühitində ilk dəfədir ki, bu nağıla müraciət olunur. Bütün bunlarla yanaşı, teatrın rəhbərliyi tamaşanın yaxşı alınması üçün yaradıcı heyətə hər cür şərait yaradır. Belə ki, rəngbərəng kostyumlar, işıq sistemləri - hamısı mükəmməldir. Çox oynaq, dinamik, bir-birini əvəzləyən hadisələrlə dolu bir tamaşa olacaq. Uşaqlar və valideynlər bu tamaşanı izləyəndə yorulmayacaq".



Tamaşada baş verən hadisələr uzaq diyarın birində kiçik bir kənddə baş verir. Ailədə baba, nənə, nəvə, pişik, siçan və alabaş var. Bu həyətdə daima xaos yaşanır. Birinin sözü digərinin boğazından keçmir. Heç kəs bir-birinin sözünü udmaq istəmir və ailədə nizam-intizam itməyə başlayır. Sanki Tanrının möcüzəsi kimi tamaşanın qəhrəmanları sınağa çəkilir. Bu sınaq nəticəsində onlar anlayır ki, birlik olmasa, mehribanlıq, əmin-amanlıq da olmaz. Əgər bir yerdə olmasalar, heç nəyin öhdəsindən gələ bilməzlər.

Tamaşaya əlavə olunan "Möcüzəli" sözü də elə-belə yaranmayıb. Turpu çıxarandan sonra sanki qəhrəmanlarımızın həyatında bir möcüzə baş verir. Sən demə, turp möcüzəli turp imiş. Təklikdə bütün ailə cəhd etsə də, turpu dartıb çıxara bilmir. Hər zaman bir-birlərinin sözlərini götürməyən nənə ilə baba, itlə pişik, pişiklə siçan dost olmağa başlayırlar. Onlar bir-birilərini dəstəkləyərək turpu dartıb çıxarırlar. Turp çıxandan sonra ailədə böyük bir nizam-intizam yaranır. Aydın olur ki,



həyatın harmoniyası pozulanda, yaşamaq mümkün olmur. Böyük-kiçiyə hörmət bərpa olunandan sonra isə hər şey öz qaydasına düşür. Tamaşada verilən mesajlar həm böyüklər, həm də uşaqlar üçün ibrətamizdir.

Rejissorun fikrincə, böyüməkdə olan nəslə ünvanlanmış bu mesajlar onların təfəkkürünə yüklənir. Belə olan halda, uşaqlar cəmiyyətdə ətrafındakı insanlara necə yanaşmaq lazım olduğunu dərk etmiş olurlar.

Qeyd edək ki, tamaşanın quruluşçu rəssamı Elşən Sərxanoğlu, bəstəkarı Rüfət Ramazanov, rejissor assistenti Sona Mustafayevadır.

Martın 18-də tamaşanın premyerası nəzərdə tutulub. Bu da o deməkdir ki, Novruz bayramı ərəfəsində valideynlər könül rahatlığı ilə uşaqlarını bu möcüzəli tamaşaya aparmaq şansı əldə edəcəklər. Hər kəsə xoş seyrlər.